# ***ALİ MƏCLİSİN İCLASI***

*4 mart 2026-cı il. Saat 15.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini* ***Bəxtiyar Məmmədov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli Fərid müəllim və media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının dördüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 15.02 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar!

Bugünkü iclasın gündəliyində 1 məsələ nəzərdə tutulsa da, əlavə olaraq Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin vəzifəyə təsdiq edilməsi məsələsi tərəfimdən gündəliyə daxil edilmişdir. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 15.03 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir.

Qanun layihəsi Ali Məclisin 18 fevral 2026-cı il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilmiş, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 18 fevral 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin plenar iclasında birinci oxunuşda səsə qoyularaq qəbul edilmiş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinin tələblərinə uyğun olaraq qanun layihəsi ilə bağlı irad və təkliflərin ümumiləşdirilməsi və öyrənilməsi məqsədilə aparıcı komitəyə göndərilmişdir.

Qeyd edilən qanun layihəsi ilə bağlı Hüquq siyasəti komitəsinin 4 mart 2026-cı il tarixdə iclası keçirilmiş, iclasda qanun layihəsinin ikinci oxunuşa hazırlanması məsələsinə baxılmışdır. Keçirilən iclasda deputatlar tərəfindən layihə ilə bağlı hər hansı irad və təklif olmamış, müsbət fikirlər ifadə olunmuşdur. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.7-ci maddəsinin tələblərinə uyğun olaraq qəbul edilmiş qərara əsasən qanun layihəsi gündəliyə daxil edilmək üçün Ali Məclisə göndərilmişdir.

Qanun layihəsinə ikinci oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 15.06 dəq.) |
|---|---:|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 42 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Daxili Nizamnamənin 20-ci maddəsinə əsasən qanun layihəsi ikinci oxunuşdan qəbul edilir və redaktə edilmək üçün aparıcı komitəyə qaytarılır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 15.07 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Qanun layihəsinin ikinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 42 deputat lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin vəzifəyə təsdiq edilməsidir.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə, 36-cı maddəsinin II hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

Konstitusiyanın 32-ci maddəsinin I hissəsinin 4-cü bəndi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə namizəd barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təqdimatı Ali Məclisə daxil olmuşdur.

Təqdimatı diqqətinizə çatdırıram.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin təqdimatı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Fərid Talətdin oğlu Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təyin edilməsi təklif olunur.

Nəzərə alınması xahiş olunur.

Fərid Bağırzadə haqqında bir neçə məlumatı diqqətinizə çatdırıram.

Fərid Talətdin oğlu Bağırzadə 1994-cü ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin informatika müəllimliyi ixtisası üzrə bakalavr, 2021-ci ildə isə Sumqayıt Dövlət Universitetinin Mühəndislik fakültəsinin idarəetmədə informasiya sistemləri ixtisası üzrə magistr pillələrini bitirib.

2016-2018-ci illər ərzində "Azeri Retail" Məhdud Məsuliyyətli Cəmiyyətinin Əmtəə dövriyyəsi və logistika departamentində, 2019-2023-cü illər ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyində müxtəlif vəzifələrdə çalışıb. DOST Agentliyinin Maliyyə və mühasibatlıq departamentinin Aktivlərin uçotu şöbəsinin müdiri vəzifəsində işləyib.

2023-2024-cü illər ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri, hazırkı vəzifəsinə qədər isə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsində işləyib, həmçinin nazir vəzifəsini müvəqqəti icra edib.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Təqdim olunan namizədə deputatlardan sualı olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Fərid Talətdin oğlu Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi hazırlanmışdır.

Qərar layihəsini diqqətinizə çatdırıram.

"F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilsin.

Deputatlardan kim "F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 15.11 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat "F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təsdiq edilmişdir.

Çıxış etmək üçün söz Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadəyə verilir.

Buyurun, Fərid müəllim!

**F.Bağırzadə,** *Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Mənə göstərilən etimada görə ilk növbədə dərin minnətdarlığımı bildirirəm.

Məlum olduğu kimi, sosial müdafiə sahəsi dövlət siyasətinin ən həssas və vacib istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan sosial siyasət hər zaman insan amilinə, vətəndaş rifahına və sosial ədalətin təmin olunmasına xidmət edib. Bu siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə sosial müdafiə sistemi davamlı şəkildə təkmilləşdirilir, həssas əhali qruplarına göstərilən dəstək genişləndirilir, sosial xidmətlərin əlçatanlığı və keyfiyyəti artırılır.

Cənab Prezidentin Naxçıvan Muxtar Respublikasına diqqət və qayğısının nəticəsi olaraq "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026−2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında və Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında ardıcıl sərəncamların imzalanması məsuliyyətimizi daha da artırır.

Həyata keçirilən sosial siyasətin əsas məqsədi vətəndaşların rifahının yüksəldilməsi, məşğulluğun artırılması və sosial müdafiə mexanizmlərinin daha da gücləndirilməsidir. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin üzərinə mühüm vəzifələr düşür.

Əminəm ki, nazirliyin peşəkar kollektivinin birgə səyi ilə sosial təminat, məşğulluq, əlilliyi olan şəxslərin reabilitasiyası, sosial xidmətlərin təşkili və digər sahələrdə daha səmərəli nəticələr əldə edəcəyik. Fəaliyyətimizdə vətəndaş məmnunluğu, şəffaflıq və operativlik əsas meyar olacaqdır.

Bir daha göstərilən etimada görə təşəkkür edirəm. Təyin olunduğum vəzifənin məsuliyyətini anlayıram və cənab Prezidentin müəyyən etdiyi hədəflər istiqamətində vəzifəmin icrasında bütün bilik və bacarığımı səfərbər edəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Hörmətli Fərid müəllimi təbrik edir və fəaliyyətində uğurlar arzulayırıq.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!